Tələbələrin sərgi ilə tanışlığına artıq start verilmişdir.

Təhsil Nazirliyi tələbələrin yüksək estetik və fəlsəfi-bədii zövqünün formalaşmasına ciddi təsir göstərən bu cür təşəbbüsləri gələcəkdə daha da genişləndirəcəkdir. Xüsusilə də, Heydər Əliyev Mərkəzində baş tutan bu tədbir tələbələrə müasir memarlıq incisi sayılan mərkəzin zəngin interyer kompozisiyası ilə də tanış olmaq imkanı yaradacaq.

Sərgidə Azərbaycan təsviri sənətini yüksəklərə qaldırmış T.Salahovun müxtəlif dövrlərdə, eləcə də son illərdə çəkdiyi 100-dən çox əsəri nümayiş olunur. Onların sırasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin portreti, həmçinin, görkəmli incəsənət xadimləri Qara Qarayev, Dmitri Şostakoviç və Mstislav Rostrapoviçin portretləri, “Sənə bəşəriyyət”, “Aydan”, “Neftçinin portreti”, “Alagöz – Şərq əfsanəsi”, “Aydan - Şərq ulduzu”, Odlar yurdu triptixi - “Atəşgah”, “Xəzər bu gün”, “Qız qalası” kimi əsərləri yer alıb. Sərgidə, həmçinin, T.Salahovun ilk dəfə məhz Heydər Əliyev Mərkəzində nümayiş etdirilən işləri də vardır.

Onu da qeyd edək ki, ölkə ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanmış sərgi noyabrın 6-dək davam edəcəkdir.